## İdman yarışlarında və məşq prosesində tibbi müayinələrin məcburi xarakter daşımasının hüquqi əsasları və milli qanunvericiliyin təkmilləşdirilməsi haqqında analitik arayış

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) müstəqil monitorinq mexanizmi çərçivəsində aparılmış araşdırmalar və təhlillər göstərir ki, idman sahəsində, əsasən yüksək riskli idman növlərində idmançıların, xüsusilə yetkinlik yaşına çatmayan şəxslərin sağlamlığının və həyat təhlükəsizliyinin daha səmərəli təmini məqsədilə qüvvədə olan qanunvericiliyin və hal-hazırda tətbiq olunan mövcud mexanizmlərin təkmilləşdirilməsinə ehtiyac vardır.

Belə ki, 2025-ci ilin sentyabr ayında Azərbaycanda keçirilmiş III MDB Oyunlarında boks üzrə bürünc medal qazanmış, Mingəçevir şəhər sakini, 2010-cu il təvəllüdlü, 16 yaşlı idmançı Əli Fazil oğlu Ruşanovun sparrinq məşqi zamanı huşunu itirməsi və sonradan vəfat etməsi idman sahəsində tətbiq olunan tibbi təhlükəsizlik mexanizmlərinin adekvatlığı və effektivliyi məsələsini kəskin şəkildə aktuallaşdırmışdır.

Baş vermiş hadisə ilə bağlı verilmiş rəsmi məlumatlara əsasən, yeniyetmələr arasında keçirilmiş Azərbaycan çempionatına hazırlıq mərhələsində 2026-cı ilin 14 fevral tarixində iki boksçu - Vaqif Rüfət oğlu Məhəmmədli və Əli Ruşanov arasında şəxsi məşqçilərinin təşəbbüsü ilə sınaq döyüşü (sparrinq) keçirilmiş, təxminən 6-7 dəqiqə davam edən məşq zamanı Əli Ruşanov huşunu itirərək yerə yıxılmışdır. Hadisə yerində idmançıya dərhal təcili tibbi yardım briqadası müdaxilə etmiş və idmançı Bakı şəhərində yerləşən 1 saylı Şəhər Klinik Xəstəxanasına çatdırılmışdır.

Lakin həkimlərin göstərdiyi tibbi yardıma baxmayaraq onun həyatını xilas etmək mümkün olmamışdır. Azərbaycan Boks Federasiyasının rəsmi məlumatında da təsdiq edildiyi kimi, idmançı qarşıdan gələn milli çempionata hazırlıq məqsədilə məşq prosesində iştirak edirdi və hadisə məhz yarışa hazırlıq mərhələsində baş vermişdir.

Baş vermiş hadisə idman fəaliyyətinin bütün mərhələlərində - yarış öncəsi hazırlıq prosesində, sparrinq və məşq mərhələsində, eləcə də yarışların özündə tibbi nəzarət mexanizmlərinin effektivliyi, idman federasiyalarının və təşkilatçıların məsuliyyəti, tibbi müayinələrin keyfiyyəti və adekvatlığı ilə bağlı bir sıra suallar yaradır və bu prosesə sistemli hüquqi və institusional yanaşmanın zəruriliyini ortaya qoyur.

Bu baxımdan, Əli Ruşanovun vəfatı yalnız fərdi faciə kimi deyil, həm də tətbiq olunan mövcud mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi və təkmilləşdirilməsi istiqamətində ciddi hüquqi və institusional tədbirlərin həyata keçirilməsini zəruri edir.

İdman fəaliyyəti, xüsusilə döyüş növləri insan orqanizminə yüksək intensiv fiziki və nevroloji yüklənmə yaradır.

Boks, qarışıq döyüş növləri (MMA - Mixed Martial Arts), kikboksinq, güləş və digər təmaslı idman növlərində baş və boyun nahiyəsinə zərbələr, təkrarlanan mikrozədələr, subklinik beyin silkələnmələri və onurğa travmaları uzunmüddətli və bəzən geri dönməz fəsadlara səbəb ola bilər. Bir çox hallarda bu dəyişikliklər klinik simptom vermədən inkişaf edir və yalnız yüksək dəqiqlikli görüntüləmə üsulları ilə aşkarlanır.

Bu baxımdan maqnit rezonans tomoqrafiya (MRT) müayinəsi xüsusi əhəmiyyət daşıyır.

MRT qeyri-invaziv və ionlaşdırıcı radiasiyasız görüntüləmə üsulu olaraq beyin, onurğa beyni, bağ və yumşaq toxumaların struktur dəyişikliklərini yüksək dəqiqliklə müəyyən etməyə imkan verir.

Xüsusilə döyüş növlərində gizli beyin qanaxmaları, mikrohemorragiyalar, xroniki travmatik ensefalopatiya riskinin ilkin əlamətləri, boyun-onurğa disklərində degenerativ dəyişikliklər yalnız MRT vasitəsilə aşkarlana bilər. Adi klinik müayinə və ya standart tibbi arayış bu riskləri müəyyən etmək üçün kifayət etmir.

Eyni zamanda, idmançılarda qəfil ölüm hallarının əhəmiyyətli hissəsi ürək-damar patologiyaları ilə bağlıdır. Hipertrofik kardiomiopatiya, aritmiyalar, anadangəlmə ürək qüsurları və digər struktur dəyişikliklər uzun müddət simptomsuz qala bilər.

Yalnız genişləndirilmiş kardioloji müayinə - elektrokardioqramma (EKQ), exokardioqrafiya (ExoKQ) və lazım gəldikdə stress-testlər bu patologiyaların erkən mərhələdə aşkarlanmasına imkan verir.

Bu səbəbdən tibbi müayinə anlayışı yalnız formal sağlamlıq arayışı ilə məhdudlaşdırıla bilməz və o, kompleks diaqnostik qiymətləndirməni əhatə etməlidir.

Beynəlxalq təcrübə göstərir ki, idmançıların yarışa və intensiv məşq prosesinə buraxılmasından əvvəl kompleks və çoxpilləli tibbi müayinə mexanizmləri artıq uzun illərdir sistemli şəkildə tətbiq olunur və idman təhlükəsizliyinin ayrılmaz elementi kimi qəbul edilir.

Beynəlxalq Olimpiya Komitəsi idmançıların yarış fəaliyyətinə buraxılmasından əvvəl "Yarışa buraxılmadan əvvəl icbari tibbi müayinə” ("Pre-Participation Medical Examination”) mexanizminin tətbiqini idmançıların sağlamlığının qorunması üzrə fundamental prinsiplərindən biri kimi müəyyən edir.

Bu mexanizm idmançının fiziki və psixofizioloji vəziyyətinin hərtərəfli tibbi qiymətləndirilməsini, ürək-damar sistemi, nevroloji status, tənəffüs sistemi, dayaq-hərəkət aparatı və digər həyati vacib orqan və sistemlərin kompleks müayinəsini nəzərdə tutur və əsas məqsədi idman fəaliyyəti zamanı potensial həyati risklərin əvvəlcədən müəyyən edilərək qarşısının alınmasından ibarətdir.

Döyüş növləri üzrə beynəlxalq tibbi təhlükəsizlik standartları daha da sərt və detallıdır.

Beynəlxalq Boks Federasiyası (“International Boxing Association”) tərəfindən təsdiq edilmiş "AIBA 2020 Medical Rules for Ringside Doctors” sənədi idmançıların tibbi müayinəsi və yarışlara buraxılması ilə bağlı konkret və məcburi prosedurlar müəyyən edir.

Həmin qaydaların 8.5.5-ci bəndinə əsasən, baş nahiyəsinə çoxsaylı zərbələr almış və ya bir neçə ardıcıl nokdauna məruz qalmış boksçunun sağlamlıq vəziyyəti yüksək riskli hesab olunur və belə hallarda tibbi münsiflər heyətinin qərarı ilə həmin idmançı ən azı 30 gün müddətində boks və sparrinq fəaliyyətindən kənarlaşdırılır. Bu müddət başa çatdıqdan sonra idmançının yenidən yarış və ya sparrinq fəaliyyətinə buraxılması yalnız ixtisaslaşmış tibbi müayinədən, o cümlədən beynin kompüter tomoqrafiyası (KT) və ya MRT müayinəsindən keçdikdən və həkim və ya nevroloq tərəfindən onun sağlamlıq vəziyyətinin təhlükəsiz hesab edilməsi barədə rəsmi tibbi qərar verildikdən sonra mümkündür.

Bu norma beynəlxalq səviyyədə MRT və digər yüksək dəqiqlikli diaqnostik müayinələrin idmançıların həyat və sağlamlığının qorunması üçün zəruri və məcburi tibbi vasitə kimi qəbul edildiyini açıq şəkildə təsdiq edir.

Eyni zamanda, “AIBA Tibbi Qaydaları”nın 10.1-ci bəndinə əsasən, boksçular üçün illik icbari tibbi müayinə geniş və kompleks xarakter daşımalı, ailə və xəstəlik tarixinin təhlili, əvvəlki cərrahi müdaxilələrin qiymətləndirilməsi, ürək-damar, tənəffüs və nevroloji sistemlərin funksional vəziyyətinin tam tibbi qiymətləndirilməsi, arterial təzyiq, nəbz, oksigen saturasiyası kimi həyati göstəricilərin yoxlanılması, oftalmoloji müayinə, nevropsixoloji və neyrokoqnitiv dəyişikliklərin qiymətləndirilməsi, habelə HİV (Human Immunodeficiency Virus - İnsan İmmunçatışmazlığı Virusu), hepatit və digər infeksion xəstəliklər üzrə laborator analizlərin aparılmasını nəzərdə tutur.

Bu müayinələrin nəticələri əsasında yalnız idmançının sağlamlıq vəziyyəti tam təhlükəsiz hesab edildikdə ona “Fit-to-Box” ("Boks fəaliyyəti üçün yararlıdır”) statusu verilir. Bu status olmadan idmançının yarış və ya sparrinq fəaliyyətinə buraxılması yolverilməz hesab olunur.

Bundan əlavə, həmin qaydaların 10.2-ci bəndinə əsasən, yarışa buraxılmadan əvvəl əlavə tibbi sertifikat təqdim olunması məcburidir və bu sertifikatın məqsədi idmançının yeni zədə, xəstəlik və ya beyin sarsıntısı kimi halların təsiri altında yarışda iştirak etməsinin qarşısını almaqdan ibarətdir. Bu tibbi arayışın qüvvədə olma müddəti məhdudlaşdırılmışdır və həkim tərəfindən idmançının tibbi qeydiyyat sənədində rəsmi təsdiq edilməlidir. Bu yanaşma beynəlxalq idman təşkilatlarının tibbi təhlükəsizliyə formal deyil, elmi və hüquqi əsaslandırılmış, çoxpilləli və sistemli yanaşdığını göstərir.

Beləliklə, beynəlxalq təcrübənin təhlili göstərir ki, müasir idman sistemində idmançıların yarış və sparrinq fəaliyyətinə buraxılması yalnız formal tibbi arayışla deyil, kompleks tibbi müayinə, o cümlədən zərurət yarandıqda MRT və digər yüksək dəqiqlikli diaqnostik müayinələrin aparılması ilə müşayiət olunur.

Bu yanaşmanın əsas məqsədi idmançıların həyat və sağlamlığı üçün potensial təhlükə yarada biləcək gizli patoloji halların erkən mərhələdə aşkarlanması və idman fəaliyyəti zamanı baş verə biləcək ağır nəticələrin qarşısının alınmasından ibarətdir.

Bundan başqa, FIFA (Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası) və UEFA (Avropa Futbol Assosiasiyaları İttifaqı) tərəfindən tətbiq edilən tibbi reqlamentlərə əsasən peşəkar futbolçular üçün müntəzəm kardioloji müayinə məcburidir. Bu tədbirlər qəfil ürək ölümü hallarının azaldılmasına yönəlib və bir çox ölkələrdə normativ qaydada tətbiq edilir.

Azərbaycan Respublikasında idman sahəsinin hüquqi tənzimlənməsi “Bədən tərbiyəsi və idman haqqında” və “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının qanunları, eləcə də bu qanunların icrası məqsədilə qəbul edilmiş normativ hüquqi aktlar ilə müəyyən edilir.

Xüsusilə “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununun 51-ci maddəsi idmanla məşğul olan şəxslərin tibbi təminatının hüquqi əsaslarını müəyyən edir və bu sahədə dövlətin, idman təşkilatçılarının və digər aidiyyəti subyektlərin öhdəliklərini təsbit edir. Həmin Qanunun 51.1-ci maddəsinə əsasən, idmanla məşğul olan şəxslərin tibbi təminatı onların sağlamlığına mütəmadi tibbi nəzarətin həyata keçirilməsini

(51.1.1), fiziki yüklənmənin onların sağlamlıq vəziyyətinə uyğunluğunun qiymətləndirilməsini (51.1.2), profilaktik tədbirlərin görülməsini, zədə və xəstəliklərin müalicəsini və tibbi reabilitasiyasını (51.1.3), habelə sağlamlığın bərpasına yönəlmiş tibbi tədbirlərin həyata keçirilməsini (51.1.4) nəzərdə tutur.

Bu normalar qanunvericilik səviyyəsində idmançıların sağlamlığının qorunmasının prioritet hüquqi və institusional vəzifə kimi müəyyən edildiyini göstərir.

Bununla yanaşı, qeyd olunan Qanunun 51.2-ci maddəsinə əsasən, idman tədbirlərinin təşkilatçıları tibbi müayinədən keçməyən və ya tibbi müayinə nəticəsində idman fəaliyyətinə yararlı hesab edilməyən şəxslərin yarış və digər idman tədbirlərində iştirakına yol verməməlidirlər.

Bu norma idmançıların tibbi vəziyyətinin qiymətləndirilməsinin yalnız formal prosedur olmadığını, əksinə, onların idman fəaliyyətinə buraxılmasının hüquqi şərti kimi çıxış etdiyini təsdiq edir. Eyni zamanda, qanunun 51.4-cü bəndinə əsasən, idmanla məşğul olan şəxslər məcburi ilkin və dövri tibbi müayinələrdən, eləcə də yarışlardan əvvəl tibbi müayinədən keçməlidirlər və yalnız bu müayinələrdən keçmiş şəxslər yarışlarda iştirak etmək hüququ əldə edirlər. Bu norma tibbi müayinənin idman fəaliyyətinin ayrılmaz hüquqi komponenti olduğunu birbaşa təsbit edir.

Həmin Qanunun 51.5-ci maddəsinə əsasən isə, tibbi yardımla təmin edilməmiş idman yarışlarının və tədbirlərinin dayandırılması, habelə tibbi müayinədən keçməmiş şəxslərin təlim-məşq və idman proseslərindən kənarlaşdırılması səlahiyyəti müvafiq icra hakimiyyəti orqanına, yəni Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə verilmişdir. Bu norma dövlətin idman sahəsində tibbi təhlükəsizliyin təmin edilməsinə nəzarət edən əsas institusional subyekt kimi çıxış etdiyini göstərir.

Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə təsdiq edilmiş "Milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı Qaydası” idmançıların tibbi təminatı ilə bağlı daha konkret və sistemli mexanizmlər müəyyən edir.

Həmin Qaydanın 4.4-cü bəndinə əsasən, milli yığma komanda üzvlərinin tibbi təminatı onların əsaslı tibbi müayinəsini, fiziki inkişaf səviyyəsinin, sağlamlıq vəziyyətinin və funksional göstəricilərinin qiymətləndirilməsini, eləcə də müalicə və tibbi müşahidə tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur.

Qeyd olunan Qaydanın 4.5-ci bəndinə əsasən isə əsaslı tibbi müayinənin məqsədi idmançıların funksional imkanlarının səviyyəsinin müəyyən edilməsi, təlim-məşq prosesinə mane ola biləcək xəstəlik və patoloji halların aşkar edilməsi, risk faktorlarının müəyyən edilməsi, idmançının fiziki inkişaf dinamikasının qiymətləndirilməsi və əldə olunan tibbi məlumatlar əsasında onun fərdi hazırlıq planına müvafiq dəyişikliklərin edilməsindən ibarətdir.

Bu müayinələrin nəticələri idmançının tibbi sənədlərində rəsmi şəkildə qeyd olunur və onun idman fəaliyyətinə buraxılması barədə qərarın verilməsi üçün hüquqi və tibbi əsas kimi çıxış edir.

Bununla belə, mövcud normativ hüquqi baza idmançıların tibbi müayinəsinin ümumi prinsiplərini və məcburiliyini təsbit etsə də, konkret olaraq MRT (maqnit rezonans tomoqrafiya), kompüter tomoqrafiyası, genişləndirilmiş kardioloji müayinə, nevroloji görüntüləmə və digər yüksək dəqiqlikli instrumental diaqnostik müayinələrin bütün idman növləri üzrə, xüsusilə də yüksək riskli döyüş növləri üzrə məcburi tətbiqini birbaşa və konkret norma kimi müəyyən etmir.

Təcrübədə tibbi müayinələr əksər hallarda ümumi tibbi arayış və ilkin klinik müayinə ilə məhdudlaşır ki, bu da beyin, ürək-damar sistemi və digər həyati vacib orqanlarda mövcud ola biləcək gizli patoloji halların vaxtında aşkarlanması üçün kifayət etmir.

Xüsusilə döyüş növlərində baş və boyun nahiyəsinə təkrarlanan zərbələrin yaratdığı subklinik beyin travmaları, ürək ritm pozuntuları və digər həyati təhlükəli vəziyyətlər yalnız MRT və digər instrumental diaqnostik müayinə vasitəsilə etibarlı şəkildə müəyyən edilə bilər.

Beləliklə, mövcud qanunvericilik idmançıların tibbi təminatının hüquqi əsaslarını müəyyən etsə də, müasir tibbi texnologiyaların imkanları və beynəlxalq təhlükəsizlik standartları nəzərə alınmaqla, xüsusilə döyüş və digər yüksək riskli idman növləri üzrə MRT və genişləndirilmiş instrumental tibbi müayinələrin məcburi xarakter daşımasını müəyyən edən normanın qəbul edilməsi idmançıların sağlamlıq hüquqlarının təmini, idman fəaliyyətinin təhlükəsizliyi baxımından zəruridir.

İdmançıların sağlamlıq hüququnun təmini sahəsində tətbiq olunan tibbi nəzarətin qeyri-kafi olması gələcəkdə mülki-hüquqi, inzibati və ya cinayət-hüquqi nəticələr doğura bilər.

Qeyd olunan problem yalnız peşəkar idmanla məhdudlaşmır. Son illər fitnes və idman zallarında yüksək intensivlikli məşqlər geniş yayılmışdır. Ağır çəki qaldırma, krossfit və digər intensiv proqramlar ürək-damar sistemi və dayaq-hərəkət aparatı üçün ciddi risk yarada bilər. Bu sahədə ilkin tibbi müayinə mexanizminin olmaması potensial təhlükə yaradır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə "Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa qeyd etdiyimiz problemi tənzimləyəcək ayrıca maddənin əlavə olunmasını məqsədəmüvafiq hesab edirik.

Həmin maddədə idmançıların bütün idman növləri üzrə yarışa buraxılmadan əvvəl icbari kompleks tibbi müayinələrdən keçmələri təsbit edilməli, döyüş və yüksək riskli idman növləri üzrə isə əlavə olaraq MRT (beyin və boyun-onurğa), genişləndirilmiş kardioloji müayinə və nevroloji rəy məcburi tələb kimi təsbit olunmalıdır. Eyni zamanda, sparinq və intensiv məşq mərhələlərində idmançıların sağlamlıq durumlarının müəyyən edilməsi üçün aralıq tibbi monitorinq mexanizmi yaradılmalıdır.

Bundan əlavə, idman federasiyaları üçün vahid elektron tibbi nəzarət reyestri formalaşdırılmalı, tibbi sənədlərin mərkəzləşdirilmiş və izlənilə bilən sistemi yaradılmalıdır. Bu, həm şəffaflıq, həm də məsuliyyət mexanizmini gücləndirəcəkdir.

Nəticə olaraq qeyd olunmalıdır ki, tibbi müayinə idman sahəsində formal prosedur deyil, insanların sağlamlıq hüququnun müdafiəsinə yönəlmiş təhlükəsizlik tədbiridir.

Gənc boksçu Əli Ruşanovun yarışdan öncə məşq prosesində aldığı zədələrdən vəfatı bir daha onu deməyə əsas verir ki, beynəlxalq təcrübədə tətbiq olunan sistemli və normativ əsaslandırılmış tibbi preventiv tədbirlər müəyyən olunmadan idmançıların, o cümlədən uşaqların sağlamlıq hüququnun təminində, həyatı təhlükəsizliyində ciddi risklər qalmaqda davam edəcəkdir.

Beynəlxalq təcrübə sübut edir ki, məcburi və genişləndirilmiş tibbi müayinə mexanizmləri idmanda qəfil ölüm və ağır travma hallarının azaldılmasında mühüm rol oynayır. Bu səbəbdən MRT və digər diaqnostik müayinələrin xüsusilə döyüş növləri üzrə məcburi xarakter daşıması milli hüquqi sistemdə birbaşa norma kimi təsbit edilməlidir.